TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_______________ E.M.Ağayev

"22" ___April___ 2015-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**PROSPAN®** daxilə qəbul üçün damcı
PROSPAN®

**Tərkibi**
*Təsiredici maddə:* 1 ml preparatın tərkibində 0,02 q plüş yarpaqlarının quru ekstraktı (5 – 7, 5:1) vardır.
*Köməkçi maddələr:* təmizlənmiş su, natrium saxarin, etanol 96%, cirə yağı, razyana yağı, nanə.

**Təsviri**
Tünd-qəhvəyi rəngli, spirt və razyana ətirli maye. Saxlanıldığı müddətdə tutqunlaşa və çöküntü verə bilər.

**Farmakoterapevtik qrupu**
Bitki mənşəli bəlğəmgətirici vasitə.

**Farmakoloji xüsusiyyətləri**
Öskürəkəleyhinə bitki mənşəli preparat.
Bəlğəmgətirici, mukolitik və spazmolitik təsir göstərir. Bəlğəmin qatılığını azaldır və onun xaric olmasını asanlaşdırır.

**İstifadəsinə göstərişlər**
Öskürək və yuxarı tənəffüs yollarının və ağciyərlərin çətin ayrılan bəlğəmlə müşayiət olunan iltihabi xəstəliklərinin müalicəsində bəlğəmgətirici vasitə kimi.

**Əks göstərişlər**
Preparatın komponentlərinə qarşı yüksək həssaslıq, uşaqlıq dövrü (1 yaşa qarşı);
alkoqol qəbulunun zərərli olduğu alkoqolizm və digər hallar.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə preparatın istifadə edilməsi üzrə tədqiqat aparılmadığına görə yalnız həkimlə ilkin məsləhətləşmədən sonra istifadə etmək olar.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Preparatı öskürəyə qarşı dərman vasitələri (belə dərman vasitələri durulaşdırılmış bəlğəmin öskürərəklə tüpürülməsini çətinləşdirir) ilə eyni zamanda qəbul etmək olmaz .

**Xüsusi göstərişlər**
Preparatın tərkibində 47 həcm%-i alkoqol vardır. Tərkibində şəkər, konservantlar və boya maddələri yoxdur. Preparatın saxlanıldığı müddətdə çöküntünün yaranması, dadının az miqdarda dəyişməsi baş verə bilər ki, bu da preparatın terapevtik effektinə təsir göstərməyəcək.

**İstifadə qaydası və dozası**
Daxilə.
1-3 yaşlı uşaqlar: gündə 3-5 dəfə 10 damcı;
4-7 yaşlı uşaqlar: gündə 3-5 dəfə 15 damcı;
Məktəb yaşlı uşaqlar və böyüklər: gündə 3-5 dəfə 20 damcı;
Damcılar yemək zamanı qəbul edilməlidir. Azyaşlı uşaqlara az miqdarda su ilə vermək məsləhət görülür.
Müalicə kursu xəstəliyin ağırlığına əsasən müəyyən edilir. Minimum kurs müalicəsi 1 həftə olmalıdır.
Terapevtik təsirin saxlanılması üçün xəstəlik simptomları aradan qalxdıqdan sonra müalicəni daha 2-3 gün ərzində davam etdirmək lazımdır.
Vəziyyət yaxşılaşmadıqda həkimə müraciət etmək zəruridir.
**Prospan damcısı ® preparatının istifadəsiilə aparılan inhalyasion terapiya**
Prospan® damcılarından istifadə etməklə inhalyasiyanın aparılması üçün qızdırmadan toz halına salmaq üçün istifadə olunan bütün standart qurğular və alətlər münasibdir. Tərkibindəki alkoqola görə qıcıqlanmanın əlavə təsirlərinin qarşısını almaq məqsədilə Prospan® preparatını inhalyasiya üçün 1:2 nisbətində içməli su ilə qarışdırmaq olar. Xüsusi inhalyasiya qurğusuna preparatdan 20-25 damcı əlavə etmək və 1:2 nisbətində otaq temperaturunda olan içməli su ilə qarışdırmaq. İnhalyasiyanı gündə 3-5 dəfə etmək.

**Əlavə təsirləri**
Allergik reaksiyalar mümkündür.

**Doza həddinin aşılması**
Göstərilmiş gündəlik dozanı əhəmiyyətli dərəcədə aşan (3 dəfədən çox) dozada qəbul etmək ürəkbulanma, qusma və diareya törədə bilər.

**Buraxılış forması**
Daxilə qəbul üçün damcı. 20 ml, mantar-damcısalanlı və burulub açılan qapaqlı tünd şüşə flakonlarda. 1 flakon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25°C-dən yüksək olmayan temperaturda, uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır!

**Yararlılıq müddəti**
4 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Engelhard Arzneimittel GmbH və Ko. KG, Almaniya /